# VƏTƏN ƏTİRLİ POEZİYA

## (Güləmail Muradın yaradıcılığı haqqında qeydlər)

**Hər bir bədii kitab müəllifin duyğu və düşüncələrinin ədəbi müstəvidə inikasıdır. Məlumdur ki, şair kitabdan-kitaba öz yaradıcılıq dünyasının sərhədlərini genişləndirməli və yeni poetik ovqatı ilə oxucu marağını qazanmalıdır. Poetik topluların başqa bədii kitablardan fərqli cəhətləri də var. Ən başlıca və diqqətçəkən məziyyət odur ki, bircə şeirlə də müəllifin poetik gücünü, iqtidarını görmək mümkündür. Bəzən bir şeir bütöv bir yaradıcılığın, bir şair taleyinin poetik indeksinə çevrilir və bu uğur müəllifə sənətkar etiketi qazandırır. Tutduğu vəzifə mövqeyindən, qazandığı titullardan, fəxri adlardan asılı olmayaraq hər bir şair şeirindən, misrasından boylanır. Şeirin bədii səviyyəsini ifadə edən elementlər sırasında başlıca məharət müəllifin qələmə aldığı mövzuya yanaşmada öz baxış bucağını göstərə bilməsidir. Digər ədəbi janrlar kimi şeirdə də bədii ümumiləşdirmə səriştəsi şairin yetkinliyinin, dolğun əsərlər yaratmaq bacarığının əyani təzahürüdür. Mahiyyət etibarı ilə ədəbiyyatda bütün mövzular işlənmişdir. Lakin istedadlı qələm sahibləri, "köhnə" mövzulara da öz poetik nəfəsi ilə yeni ruh verə bilir, məhz poetik ruhun canlılığı, təravəti şairin özünəməxsusluğunu şərtləndirən amillər sırasındadır.**

Cağdaş poeziyamızda Vətən ağrısını, Qarabağ həsrətini, həmçinin sevgi, məhəbbət, intizar, həsrət duyğularını bədii sözün aynasında canlandıran, poetik sözə səmimi ovqatla xidmət göstərən istedadlı şairlərdən biri Güləmail Muraddır.

Onun son zamanlar işıq üzü görmüş "Aprel döyüşləri" və "Günnüt zəfəri" adlı kitabları dəyərli vətənpərvərlik dastanları kimi səciyyələndirmək olar. Vətənimizin qəhrəman oğullarının hünərinə, şücaətinə ayna tutan, bu igidlikləri bədii-ictimai və səmimi poetik ruhda sözün yaddaşında canlandıran Güləmail Murad çağdaş poeziyamızda yüksək vətəndaş şair mövqeyini təsdiqləmiş olur. Bu kitabların önəmli cəhətlərindən biri də tanınmış qələm adamlarının, həmçinin ictimai-siyasi xadimlərin bu toplular haqqındakı fikirləridir. Görkəmli alim, akademik Nizami Cəfərovun yazdığı ön sözdən, kitabların redaktorları - tanınmış yazıçı-tərcüməçi Arifə Əliyevanın, şair-publisist Elnur Abdiyevin əməyi və fikirlərindən, Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun, Ağstafa rayon İcra Hakimiyyətinin sabiq başçısı Məhərrəm Quliyevin bu dəyərli topluların işıq üzü görməsi üçün göstərdikləri qayğıdan həqiqi vətənpərvərlik, yurdsevərlik, vətəndaşlıq duyğuları boylanır.

Güləmail Muradın poeziyasının əsas mövzusu milli-mənəvi, bədii-fəlsəfi dəyər, vətənpərvərlik düşüncəsi, insanın fərd olaraq daxili aləmindəki təbədüllatlar, həmçinin ləyaqətli insan şəxsiyyətinin səmimi və obrazlı tərənnümü, bununla yanaşı, əzəmət və gözəlliyin, həssaslıq və qayğıkeşliyin təbliğidir.

Şairin əsərləri bədii məziyyətlər, poetika baxımından nəzəri cəlb etməklə bərabər, həm də məxsusi yaradıcılıq fəaliyyətinin xüsusiyyətləri ilə də maraq doğurur. Səmimi ahəngdarlığı, rəvanlığı ilə seçilən şeirləri vətəndaşlıq möhürü ilə təsdiqlənərək, xalqın ruhunu oxşayan şair dəst-xəttini müəyyənləşdirir və geniş oxucu sevgisinin ünvanına çevrilir.

Müəllifin poetik nümunələri yetkin şair düşüncəsinin sənət müstəvisində əyaniləşməsidir. Güləmail Muradın şair kimi fərdi yaradıcılıq manerasını səciyyələndirən önəmli xüsusiyyət onun vətəndaşlıq qayəsinin səmimiyyəti və dolğunluğudur. Şairin müxtəlif mövzularda yazılan şeirlərini səmimiyyət, həyat hadisələrinə poetik baxış, xeyirxahlıq duyğularının təbliği, saf sevgi kimi amillər birləşdirir. Bütün bu məziyyətlər Güləmailin sözə məsuliyyətlə yanaşmasının nəticəsi olmaqla bərabər, həm də sənətə dərindən bağlılığına zəmanət verir.

Şairin ədəbi uğurunu şərtləndirən cəhətlərdən biri də onun qələmə aldığı mövzuların mahiyyətinə dərindən vara bilməsi, gördüyü problemlərin səbəbini sənətkar kimi araşdırmasıdır. Milli-mənəvi dəyərlərimizə bağlılığı, milli özünüdərk mövzularına daha dərindən vaqif olması diqqətdən yayınmır. Onun şeirlərində yalnız milli ağrılarımız göstərilmir, həm də bu bəlaları doğuran səbəblər bədii sənət güzgüsündə işıqlandırılır. Güləmailin poetik nümunələrində Vətən, insan, təbiət və zamanla bağlı fikirlər, düşüncələr təqdim olunan mahiyyətin mühüm tərkib hissəsi kimi üzə çıxır.

Güləmail Muradın "Azərbaycanım" şeiri müstəqilliyimizin, milli məfkurəmizin, istiqlalımızın üçrəngli bayrağımızın tərənnümünə həsr olunub.

**Mən sənə can dedim, çünki canda can**
**Səninlə canlanır, Azərbaycanım!**
**Dünyaya gələndən damarımda qan**
**Eşqinlə dolanır, Azərbaycanım!**

**Haqqa söykənibdi kökün, dayağın,**
**Uzaq ulduzlardan gəlir sorağın.**
**Harda ədalət var, üçrəng bayrağın -**
**Orda dalğalanır, Azərbaycanım!**

**Mərmərədən Altay dağlarınacan,**
**Kazandan Təbrizin bağlarınacan.**
**Hamı bir ağızdan sənə deyib "can",**
**Səni qardaş sanır, Azərbaycanım!**

**Güləmail sənlə ilhama gəlir,**
**Şeir adlı dinə, imana gəlir.**
**Qutsal bayrağını salama gəlir -**
**Quştək qanadlanır, Azərbaycanım!**

Vətən sevgisi, yurd məhəbbəti onun yaradıcılıq kredosunun əsasını təşkil edir. Özünəməxsus obrazlar yaratmaq bacarığı, sözü yerində və ustalıqla işlətmək məharəti, həmçinin sadə deyimlə zəngin poetik məna ifadə bilməsi onun yetkin şairlik xüsusiyyətini əyaniləşdirir. İstedadli şairin "Vətən" şeiri də öz poetik dəyəri, ictimai-bədii sanbalı ilə diqqətəlayiqdir.

**Cəsur igidlər tək düzülüb dağlar,**
**Uca zirvələrdən şəlalə çağlar,**
**Qısılıb döşünə bulaqlar ağlar,**
**Vətən!**

**Alovu düşməni yandırır, yaxır,**
**Qan damarlarıdır Kür, Araz - axır,**
**Əyilib Xəzərdə özünə baxır**
**Vətən!**

**Qız qalası kimi təmizdir adı,**
**Ana tək, ata tək əzizdir adı,**
**Çaydı, göldü, dağdı, dənizdir adı**
**Vətən!**

**Şeirim qanadanır səni andıqca,**
**Sənin eşqin ilə alovlandıqca,**
**Üçrəngli bayrağın dalğalandıqca**
**Vətən!**

Güləmailın şeirlərin önəmli məziyyətlərindən biri də vətənpərvərliklə yanaşı, insanın mənəvi dünyasının, hisslər, duyğular aləminin həssas və zərif ifadə olunmasıdır. Bu poetik nümunələrdə dərin və saf bir sevginin, hicran və həsrət qoxulu ömrün səmimi tərənnümü diqqəti cəlb edir. Lirik qəhrəmanın yaşadığı yurd ağrısının dərinliyi ilə bərabər eşqin ucalığını, qüdrətini daha parlaq və gözəl ifadə etmək üçün istifadə olunan bədii təsvir və ifadə vasitələrinin təravəti şairin poetik bacarığının ehtivasıdır.

Şairin poetik əsərlərinin lirik qəhrəmanı öz müşahidə qabiliyyəti ilə diqqəti cəlb edir. Onun fərdi poetik siması yalnız qələmə aldığı nümunələrin üslüb cəhətlərində deyil, həmçinin hadisələrə yanaşmasında, onları seçməsində və qiymətləndirməsində, lirik "eqo"nun əhval-ruhiyyəsini təravətli, həm də səmimi çalarlarla ehtiva etməsindədir.

O, dilimizin zəngin və rəngarəng təhkiyələrindən, bədii təsvir və ifadə vasitələrindən bacarıqla istifadə edərək, qələmə aldığı mövzuların bədii həllini, poetik ümumiləşdirməsini özünəməxsus ovqatda təqdim edə bilir. Güləmail Muradın yaradıcılığında məxsusi bir məziyyət var ki, onu başqalarından fərqləndirə bilir. Bu cəhəti şərtləndirən amil geniş və dərin mənada sadəlikdir və bu sadəlikdə bədii zənginlik və müdriklik mövcuddur. Onun şeirlərinin məğzini təşkil edən dərin və poetik ictimai məna uğurlu yaradıcılıq səciyyəsi daşıyır.



Şairin lirikasında həsrət və qəm motivlərinin yeknəsəkliyi, sentimental notlar, gərəksiz pafos heç vaxt duyulmur. Onun şeirlərində vətənin, doğma ocağın tərənnümü, həmçinin milli-mənəvi dəyərlərin, nəciblik, əzəmət və gözəllik duyğularının bədii müstəvidə səmimi təbliği, bütövlükdə yaradıcılığına dərin ictimai-fəlsəfi məndəricə gətirir.

**Ellərin vüqarıdır,**
**Dillərin şüarıdır,**
**Təmizlik diyarıdır,**
**Paklıq, səfa torpağı -**
**Ağstafa torpağı.**

**Vəfalıdır dostlara,**
**Düz əhdə, saf ilqara,**
**Bütün vəfadarlara,**
**Bura vəfa torpağı -**
**Ağstafa torpağı.**

Bu poetik nümunələri mövzusundan asılı olmayaraq daxili bir bədii məntiq, ümumi bir məna birləşdirir. Güləmail Muradın şeirlərində insana inam və etibar motivi güclü olduğu üçün, bu məziyyət şeirlərinin bədii siqlətinə nikbin əhvali- ruhiyyə, işıq və hərarət qatır. Bununla yanaşı, onun validеyn-övlad, təbiət, dostluq haqqındakı şeirləri də ictimai siqləti ilə seçilir. Şairin "Şəhid anasıyam" şeiri öz səmimi poetikası, kövrəkliyi baxımından yaddaqalandır.

**Şəhid anasıyam, qoy bilsin ellər,**
**Amma göz yaşımı boğacağam mən.**
**Bətnimdən doğduğum şəhid balamı,**
**İndi öz ruhumdan doğacağam mən.**

**Mənimdir Kür çayı, Göyəzən dağı,**
**Hər daşım, hər qayam aslan yatağı.**
**Sinəmə dağ çəkmək istəyən yağı,**
**Görsün necə zirvə, necə dağam mən.**

**Ah çəksəm, ahıma dinər ulduzlar,**
**Göylərdən yerlərə enər ulduzlar,**
**Üçrəng bayrağıma dönər ulduzlar,**
**Ana görkəmində bir bayrağam mən.**

Güləmailin rəvan və təbii üslubu, şeirlərinin vəzn, bölgü, qafiyə və poetik strukturun digər elementlərindən məharətlə istifadə etmək bacarığı onun yaradıcılıq yetkinliyini şərtləndirən keyfiyyət kimi önəmli səciyyə daşıyır. Poetik yükündən bədii mahiyyətindən asılı olmayaraq, Güləmailın bütün şeirlərindən vətəndaşlıq sevgisi boylanır, vətən ətri gəlir, nəciblik, məhəbbət, halallıq qoxusu duyulur. Bu şeirlərdə insanın insanlar qarşısında, bəşəriyyət qarşısında insanlıq borcunun və ləyaqətinin vicdanla, ədalətlə, namusla icrası məsələsinə böyük diqqət verilir. Bu xüsusiyyətlər onun şeirlərinə ictimai dərinlik, geniş vüsət və məzmun bütövlüyü gətirir. Sairin bir çox şeirlərinin ifadə tərzindəki məxsusilik, fikrin misra-misra incələnməsindən yaranan dolğunluq, incə lirizm, sakit və təmkinli ahəng, bədii-ictimai düşüncələrin doğurduğu poetik sanbal onun yaradıcılıq fərdiyyətinin keyfiyyət göstəricisidir.

Məlumdur ki, lirik əsərlərdə yenilik ruhu o vaxt diqqət kəsb edir ki, orada həyati müşahidə bədii materialın, poetik obyektin yeni cizgilərinə, görünməmiş tərəflərinə nüfuz etmiş olur. Güləmail Muradın şeirlərində ictimai, mənəvi, əxlaqi tamlıq və halallıq mövzusu geniş yer tutur və onun dünyagörüşünün, bədii-estetik idealının müəyyənləşməsində, formalaşmasında əhəmiyyətli rol oynayır. Bu poeziyanın ən səciyyəvi xüsusiyyətlərindən biri onun müasirliyidir, yəni şair müasir həyatımızın təzadlarını, onun insanlara səadət bəxş edən məqamlarını və eyni zamanda, insanları əzab məngənəsində sıxan anları poetik məzmunda ehtiva edərək, onu yeni-yeni məna çalarları ilə zənginləşdirir.

Güləmailin şeirlərində milli kolorit qüvvətli olduğu üçün böyük maraq doğurur. Bu cəhət şeirlərin mövzusunda, mütəmadi müraciət olunan qoşma janrının ahəng və ritmində, bədii təsvir vasitələrində nəzərə çarpır. Məlumdur ki, poeziyamızda qoşma janrı həmişə öz xəlqiliyini və müasirliyini qoruya bilmişdir. Qoşmada şirinlik, axıcılıq, səmimiyyət və sadəlik vardır. Qoşma lakonikdir, yığcamdır, şairi sözə məsuliyyətlə yanaşmağa, sözə qənaət etməyə məcbur edir. İstedadlı şair qələmində qoşma mənalı, ahəngdar musiqiyə, gözəl nəğməyə çevrilir. Güləmail Muradın yaradıcılığında belə poetik nümunələr çoxdur.

**Axan göz yaşımı necə saxlayım?**
**Bəxtimə yazılıb yaş doğulanda.**
**Bu yaşla başımı necə saxlayım?**
**Bəxtimə yazılıb yaş doğulanda.**

**Mənəm Kürü yazan, Arazı yazan,**
**Narazı doğulan, narazı yazan...**
**Kəsmə göz yaşımı, ev yazı yazan,**
**Bəxtimə yazılıb yaş doğulanda.**

Şair klassik qoşmanın ən yaxşı xüsusiyyətlərindən, məzmun vəhdətindən, obrazlılıqdan məntiqi ardıcıllıqdan, dil və ifadə oynaqlığından məharətlə istifadə edərək, gözəl nümunələr yaratmışdır. Güləmail Muradın dilimizin zəngin və rəngarəng təhkiyələrindən, bədii təsvir və ifadə vasitələrindən ustalıqla bəhrələnərək, mövzunun bədii həllini, poetik ümumiləşdirməni məxsusi ovqatda təqdim edə bilir.

**Yalan axtarmayın əsla sözümdə,**
**Qaçmaq istəyirəm mən bu dünyadan.**
**Bu dünya arzumu qoydu gözümdə,**
**Qaçmaq istəyirəm mən bu dünyadan.**

**Yanımda ucalan dar ağacım var,**
**Canımda nisgilim, ağrım, acım var.**
**Gözəl bir qaçışa ehtiyacım var,**
**Qaçmaq istəyirəm mən bu dünyadan.**

Şair bəzən bir bənddə lakonik poetik detallarla oxucu xəyalında orijinal lövhələr canlandıra bilir. Onun bir sıra şeirlərində mürəkkəb psixoloji vəziyyətlər, anlar və duyğular, hisslər aləmi çox zərif və dəqiq ifadəsini, bədii həllini tapmışdır. O, bədii dilin estetik gözəlliyinə, emosionallığına məsuliyyətlə yanaşaraq, məzmuna uyğun forma rəngarəngliyindən səriştəylə istifadə etməyi bacarır. Güləmailın yaradıcılığında mənəvi-əxlaqi zənginliyin harmoniyası vardır.

Güləmail Muradın gəraylıları da öz poetik təravəti ilə könül oxşayır.

Bu mənada o, daim inkişaf edən həm forma və məzmun əlvanlığı, həm də poetika baxımından təkmilləşən bir istedadın sahibidir.

Bəllidir ki, bədii sənətin gücü böyük ideyanın, dəyərli fikrin obrazlı təcəssümündə, səmimi və təravətli ehtivasındadır. Bu keyfiyyətlər qələm sahibindən bədii sözün məna çalarlarını, dilin incəliklərini duymağı, poetik obrazlar sistemində əsərin forma və məzmun vəhdətini yaratmağı, sənət qarşısında daim məsuliyyət hissini qorumağı tələb edir. Bütün bu məziyyətlər istedadlı şair Güləmail Muradın yaradıcılığında öz əksini tapmışdır.

**İstedadlı şairin bu şeirlər toplusunu onun ədəbi uğuru, yaradıcılıq nailiyyəti kimi səciyyələndirmək olar. Poeziya yolunda ona daha boyuk ugurlar diləyirəm!**

**BALAYAR SADİQ**